**Aygün Bağırlı**

*filologiya üzrə fəlsəfə doktoru, dosent*

## Sənə zəfər yaraşır, Azərbaycan ordusu!

Müharibə nə qədər arzuolunmaz, nə qədər ağrılı, əzabverici və acı olsa da, bəzən qaçılmaz olur. Bu gün bizim istəmədən, humanist və sülhsevərliyimizə baxmayaraq, məcburən tərəfdaşı olduğumuz müharibə kimi. Özünü, sərhədlərini, tarixi-coğrafi bütövlüyünü, dincliyini qorumaq, müdafiə etmək üçün üz-üzə qaldığımız bu müharibə kimi.




Diqqəti savaşın, müharibənin nə qədər ziddiyyətli olsa da işıq saldığı məqamlara yönəltmək istəyirəm. Bir xalq olaraq, bir millət olaraq özümüzü yenidən tanıdıq. Heç nəyin – müvəqqəti məğlubiyyətin, ağır qaçqın-köçkün həyatının, müstəqilliyini yeni əldə etmiş ölkə kimi yaşanılan sosial-iqtisadi problemlərin milli ruhumuzu sındırmadığının, içimizdəki işığı söndürmədiyinin, yeri gələndə eyni amal ətrafında bir ola bilməyimizin şahidi olduq. Üçrəngli bayrağımızın yüksəklikdə qalması, səmada dalğalanması naminə arxasınca milyonları apara bilən bir ruh, bir sevda məsələsi olduğunu gördük. Ölümü, qanı heçə sayan, cəsarətiylə ölümü öldürən, ölüm adlı məfhumu şəhid olmaq kimi müqəddəsliyə çevirən gənclərimizi gördük. O gənclər ki, bu gün üzlərində, gözlərində sevinc, qürur, tərəddüd etmədən cəbhəyə yollanırlar. Bu sevinc qan tökülməsini arzuladıqlarından deyil, vətəni qorumaq, şərəflə yaşamaq kimi ali hissdən doğur.

Bu gün hansı bölgədən olmasından asılı olmayaraq, hər bir azərbaycanlı üçün vətən Qarabağdır, hər bir azərbaycanlı üçün paytaxt Qarabağdır. Bu gün yaşından asılı olmayaraq hər bir azərbaycanlı özünü cəbhəyə gedə biləcək yaşda hiss edir. Bu gün hər bir azərbaycanlı üçün vətən sevgisi bütün sevgilərin fövqündədir.

Vətən

Albomu bəzəyəcək

Uşaq rəsmi deyil,

Dünya xəritəsində.

Vətən şən bir məclisin ən şirin yerində,

qəflətən sıxılan ürəkdir övlad sinəsində...

Vaqif Səmədoğlu.

Bu sancı onda olurdu ki, içimizdəki həsrəti, sərhədləri aşmaq istəyimizi, əzmimizi buxovlayıb, dünya təşkilatlarının dəyirmi masalarında haqqımızda verilən qərarlara hörmətlə yanaşır, verilən vədlərin gerçəkləşməsinə inam bəsləyirdik. Ali Baş Komandanın əmrini gözləyirdik. Nəhayət, o gün gəldi, əmr verildi, hamı bir nəfər kimi cənab prezidentin ətrafında birləşdi.

Zəfəri, qələbəni çoxdan haqq edən, buna yetərincə gücü çatan Azərbaycan ordusu öz tarixi torpaqlarının uğrunda haqq savaşına çıxdı. Dünyanın bəlkə də, ən sülhsevən qadını olan Türk anaları, hətta övladı cəbhənin ən qaynar nöqtəsində olan analar belə torpaqlarımız işğaldan azad olmayınca müharibənin dayanmasını istəmir.

Azərbaycan xalqı çoxdan həsrətində olduğu qələbənin arzusundadır. Haqqımız olan nəsibimiz olsun.

Sənə zəfər yaraşır, Azərbaycan ordusu!

*Azərbaycan qəzeti. – 2020. – 07 noyabr.*